İPƏK YOLU, No.2, 2022, səh.25-39

# BÖYÜK İPƏK YOLUNUN FORMALAŞMASI VƏ TƏKAMÜLÜNDƏ TÜRK DÖVLƏTLƏRİNİN ROLU

**Şamil Əzizov**

Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
e-mail: azizov_shamil@yahoo.com

**Xülasə.** Məqalədə Böyük İpək yolunun yaranması, onun marşrutlarının formalaşması və dəyişdirilməsi üzrə türk dövlətlərinin fəaliyyəti araşdırılır. Tədqiqatda iqtisadi amillərə xüsusi fikir verilir.

**Açar sözlər:** nəqliyyat dəhlizləri, ölkələrarası ticarət, elmi kəşflər, texnoloji nailiyyətlər.

**THE ROLE OF THE TURKIC STATES IN THE FORMATION AND EVOLUTION OF THE GREAT SILK ROAD**

**Shamil Azizov**
*Azerbaijan State Economic University, Baku, Azerbaijan*

**Abstract.** The activity of the Turkic states on the creation, formation and modification of the Great Silk Road is investigated in the paper. Special attention in the study is paid to the economic factors.
**Keywords:** transport corridors, interstate trade, scientific discoveries, technological achievements.

**РОЛЬ ТЮРКСКИХ ГОСУДАРСТВ В ФОРМИРОВАНИИ И ЭВОЛЮЦИИ ВЕЛИКОГО ШЕЛКОВОГО ПУТИ**

**Шамиль Азизов**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*

**Резюме.** В статье исследуется деятельность туркских государств по созданию Великого Шелкового пути, формированию и изменению его маршрутов. Особое внимание в исследовании уделяется экономическим факторам.
**Ключевые слова:** транспортные коридоры, межгосударственная торговля, научные открытия, технологические достижения.

## 1. Giriş

Nəqliyyat dəhlizlərinə nəzarət bəşəriyyət tarixində xüsusi əhəmiyyət kəsb edən iqtisadi və siyasi çağırış olmuşdur. Minilliklər keçməsinə baxmayaraq, bu motiv öz önəmini nəinki itirməmiş, dünya müstəmləkə sisteminin dağılması və nəhəng transmilli şirkətlərin beynəlxalq istehsal və ticarətdə aparıcı aktorlara çevrilməsi ilə onun önəmini artmışdır.

Çağdaş dövrümüzdə belə dəhlizlərdən ən mühümü əhalisi və iqtisadiyyatı sürətlə artan Asiya qitəsini, böyük enerji ehtiyatlarına malik olan Yaxın Şərqi və inkişaf etmiş iqtisadiyyata və bu səbəbdən bir tərəfdən yüksək alıcılıq qabiliyyətinə malik olan və qabaqcıl texnologiyalar ixracatçısı olan Avropanı birləşdirən "Bir kəmər, bir yol" (BKBY) dəhlizidir. Bu dəhlizin əhatə etdiyi ölkələr ətrafında son dövrlərdə baş verən hadisələr (o cümlədən Türkiyənin Yaxın Şərqdə aktivləşməsi və Fransa kimi bir sıra ölkələrin buna qarşı fəal əks-təsir sərgiləməsi, BKBY-nin tərkib hissəsi və Azərbaycanın tarixi torpaqları olan Zəngəzur dəhlizinin açılmasının əngəllənməsi cəhdləri, Ukrayna müharibəsi, Pakistan-Hindistan, Çin-Hindistan qarşıdurmaları) də bunu sübut edir.

Şübhəsiz ki BKBY təşəbbüsü ilk növbədə dünyanın inkişafında və qloballaşmasında mühüm rol oynamış Böyük İpək yolundan (BİY) qaynaqlanır. Tədqiqatlar göstərir ki, BİY-in mövcud olduğu tarix boyu onun böyük hissəsi türk dövlətlərinin nəzarətində olmuş, onlar bütün fəaliyyət sahələrində regionun inkişafına önəmli töhfələr vermişlər. Bu dövlətlərin Avrasiya məkanında ölkələrarası iqtisadi əlaqələrdə rolu isə xüsusən əhəmiyyətlidir. Elmi araşdırmalar müxtəlif dövrlərdə 16 belə türk dövlətinin mövcud olduğunu sübut edir [1].

## 2. Qədim Türk dövlətləri və onların BİY-ə təsiri

1) Böyük Hun İmperatorluğu (e.ə. 220-eramızın 215-ci illəri). Bu dövlət müasir Monqol ərazisində yaşayan əsasən türklərdən ibarət olan tayfalarının, həmçinin digər tayfaların birləşməsi nəticəsində yaranmışdır. Əksər tarixçilərin ümumi rəyinə görə dövlətin adı Mərkəzi Asiyada, əsasən müasir Özbəkistan ərazisində yaşamış hunnu tayfalarının adından götürülmüşdür [2, s. 160]. Onu da qeyd edək ki, qonşu Çinin böyük səddi məhz bu dövlətin genişlənmə siyasətinin qarşısının alınması məqsədilə tikilmişdir. Böyük Hun İmperatorluğunun ümumi ərazisi 4,030,000 kv. km təşkil etmişdir [3].

2) Qərbi Hun İmperatorluğu (e.ə. 48-eramızın 216-ci illəri). Bu dövlət Böyük Hun İmperatorluğunun parçalanması ilə onun qərbində meydana gəlmişdir [4].

3) Avropa Hun İmperatorluğu (eramızın 375-469-cu illəri). Bu dövlət imperator Balamir tərəfindən qurulmuş [1], 433-cü ildə Attilanın hakimiyyətə gəlməsi ilə ərazisini pik həddinə çatdırmışdır [5]. Tarixə "xalqların böyük yerdəyişməsi" adı ilə daxil olan Attilanın Avropaya hərəkəti nəticəsində Roma imperiyası təslim olmuşdur. Onun dövründə Hun İmperatorluğu Altaylardan Alp dağlarına qədər ərazini əhatə etmişdir (şəkil 1).




**Şəkil 1**. Attila dövründə Hun İmperatorluğunun ərazisi

4) Ağ Hun İmperatorluğu (eramızın 420-552-cu illəri). Bu dövlət hələ Attila dövründə 420-ci ildə imperator Aksuvar tərəfindən qurulmuşdur [1]. Mövcudluğu dövründə bu dövlət Şimali Hindistanı zəbt etmiş, İpək yolunu ələ keçirmişdir [6, s. 182].




**Şəkil 2**. Ağ Hun İmperatorluğunun ərazisi

5) Ağ Hun İmperatorluğu Asiyanın bütün mərkəzini əhatə edirdi (şəkil 2).

6) Göytürk dövləti (eramızın 552-745-ci illəri). Bumin xaqanın qurduğu bu dövlət tarixdə adında "türk" sözü olan və türkcə yazılı əsər çap edən ilk dövlət kimi tanınır [1]. Ərazisi 6 mln. kv. km-ə çatırdı.

Artıq 555-ci ildə Mərkəzi Asiya, həmçinin qırğızlar, 560-cı illərdə Şimali Çin dövlətləri Çjou və Tsi, 571-ci ildə İrana yürüşdən sonra Amu-Dəryanın sərhədi, 589-cu ildə isə bu çayın qərb vilayətləri, 576-ci ildə Bospor (Kerç) Göytürk xaqanlığının tərkibinə salındı, 581-ci ildə isə Xerson mühasirəyə alınmışdır [7]. VI əsrin sonları VII əsrin əvvəllərində Türk xaqanlığı iki rəqib Qərbi və Şərqi xaqanlıqlarına parçalansalar da, ayrılıqda da olsa bu coğrafiyanı nəzarətdə saxlayırdılar. Lakin VII əsrdə ərəblərə məğlub olandan sonra Şərqi Türk xaqanlığı dağıldı və onun yerində Uyğur Xaqanlığı meydana gəldi. 740-cı ildə isə Qərbi Türk xaqanlığı dağıldı [7].

<u>İqtisadiyyatı</u>. Türklərin əsas iqtisadi fəaliyyəti maldarlıq - əsasən qoyunçuluq və atçılıq, həmçinin çöl heyvanları üzrə ovçuluq, əsas yeməkləri ət, içkiləri kumıs olmuşdur. Paltar və çadırı heyvan dərilərindən tikilirdi. Bundan başqa keçə və yun parçalar da istehsal olunurdu. Eyni zamanda türklər sənaye üsulu ilə dəmir çıxarmağı öyrənmiş, buna görə də metallurgiya inkişaf etməsi səbəbindən ordu daha mükəmməl silahlarla silahlanmışdı. Böyük ərazi xalqlararası ticarətin inkişafına əlverişli şərait yaratmışdı [8, s.112]:

- İpək yolunun müəyyən hissəsinin ələ keçirilməsi nəticəsində xaqanlığın bir sıra böyük şəhərləri beynəlxalq ticarət pabına çevrilmiş, əsasən bunun hesabına gəlir əldə edirdi. Məsələn, o dövrün İran tacirləri xaqanlığın Taraz şəhərini burada satılan məhsulların geniş çeşidinə görə "dünya bazarı" adlandırırdılar.
- Xaqanlıqda Çin və İran tacirlərinin də daxil olduğu tacir birlikləri fəaliyyət göstərirdi.

7) Avar Xaqanlığı (eramızın 565-835-ci illəri). Cənubi Şərqi Avropanın əhəmiyyətli hissəsini özünə tabe etdirmiş bu dövlətin banisi I Bayan olmuşdur. 568-ci ildə o, Orta Dunayı ələ keçirdərək, oranın slavyan, german və romandilli əhalisinə hakim kəsilir [9, s. 51]. 582-ci

ildə Sirmi, növbəti ildə Sinqidun, 597-ci ildə Balkan yarımadasında müasir Xorvatiyanın ərazisində yerləşən Dalmasiya, 599-cu ildə Qara dəniz sahilləri zəbt olunur [10]. 600-cü ildə Avar imperatorluğu 1 milyon kv. km. sahəni əhatə edirdi (şəkil 3).




**Şəkil 3**. Avar Xaqanlığının ərazisi

<u>İqtisadiyyatı</u>. Xaqanlığın əhalisi əsasən maldarlıqla, müəyyən hissəsi isə əkinçiliklə məşğul olurdu. Avarların gəlirlərinin əhəmiyyətli hissəsi zəbt elədikləri dövlətlərdən aldıqları xərac idi. Məsələn, VI əsrdə Bizansın xaqanlığa illik ödənişi 120 min solid (1 solid = 4,55 qram) qızıl idi.

8) Xəzər Xaqanlığı (eramızın 651-983-cü illəri [1] və ya Xəzər Xaqanlığı (eramızın 650-969-cu illəri [11, s. 7]). Qərbi Türk Xaqanlığının varisi sayılan bu dövlət şərqdən müasir Qazaxıstanın şimali-qərbini, Volqa boyu ərazinin aşağı və orta hissəsini, Qafqazın böyük ərazisini, Krımın şərqi və Azov sahillərini, qərbdənsə Şərqi Avropanın Dneprə qədər hissəsini ehtiva etmişdir (şəkil 4).




**Şəkil 4.** Xəzər Xaqanlığının ərazisi

Bu dövlət onu əhatə edən qonşu müsəlman dövlətləri ilə sülh münasibətlərində olsa da, Ərəb Xilafəti ilə münasibətlər, xüsusən də Qafqazda gərgin olmuşdur. Bizansla müttəfiqlik münasibətləri və ərəblərin Bizansı zəbt etmə cəhdləri də bu gərginliyi daha da artırırdı. 737-ci il ərəblərlə müharibədə Xəzər xaqanlığı məğlub olsa da, Ərəb Xilafətində olan daxili çəkişmələr nəticəsində öz müstəqilliyini saxlaya bilmişdir [11, fəsil 13]. Lakin ərəblərlə bu çoxsaylı müharibələr xaqanlığın süqutunda mühüm rol oynamışdır [12, fəsil 5].

İqtisadiyyatı. Adi əhalinin əsas iqtisadi fəaliyyəti köçəri maldarlıq idi. Xaqanlığın ilk oturaq mərkəzi olan müasir Dağıstan ərazisində üzümçülük, digər məskunlaşdığı Don, Kuban və Krımın münbit torpaqlarında dənlilər, düyü, meyvə-tərəvəz, o cümlədən, üzümçülük, dəniz sahili ərazilərdə böyük həcmlərdə balıqçılıq, bundan əlavə zərgərlik, dəmirçilik, dulusçuluq inkişaf etmişdi [12, fəsil 5].

Yüksək təbəqənin ilk vaxtlar gəlir mənbəyi hərbi qənimətlər olsa da, ölkə böyüdükdən sonra əsas gəlir ölkələrarası ticarətdən əldə edilən rüsum oldu. Xaqanlığın bir neçə beynəlxalq ticarət yolunun üzərində olması buna əlverişli şərait yaradırdı [13]:

- Volqa yolu şimala – Baltik ölkələrinə qədər;
- Xəzər dənizi vasitəsilə ilə şərqə Mərkəzi Asiya və cənuba Bağdada qədər;
- Krımdan Qara dənizlə Bizansa qədər.

Rüsumdan əlavə xəzərlər öz istehsalı olan xəz, qoyun, balıq məhsulları və qul ixracından da qazanc əldə edirdi. Ölkə öz sikkələrini də buraxırdı.

9) Uyğur Xaqanlığı (eramızın 744-842-ci illəri). Şərqi Göytürk dövlətinin süqutundan sonra onun ərazisində yaranan bu dövlət Şərqdə müasir Çinin paytaxtı Pekin, cənubda Monqolustan, Tyan-Şan və Himalay dağları, qərbdə Xəzər dənizi, Şimalda Rusiyanın Asiya ərazisi ilə əhatə olunmuşdu. Qobi laylası da bu dövlətin tərkibində idi (şəkil 5).

İqtisadiyyatı. Ölkənin iqtisadiyyatı kənd təsərrüfatı, sənətkarlıq və beynəlxalq ticarət əsasında inkişaf etmişdi. Qazıntılar burada suvarma sistemlərindən geniş istifadə olunduğuna dəlalət eləyir. İpək yolunun əhəmiyyətli hissəsinə nəzarət beynəlxalq ticarətin də inkişafını şərtləndirmişdi. Çində ipəkçiliyin inkişafı, Qərbdə Ərəb Xilafətinin intibahı və öz gümüş dirhəmi ilə beynəlxalq ticarət mübadilələrini təmin etməsi və Bizans İmperiyasının idxal-ixracda fəal iştirakı xaqanlığın rolunu daha da artırırdı. Beləliklə, Uyğur xaqanlığı bir tərəfdən Çinin Yaxın və Orta Şərqlə, digər tərəfdənsə cənubdakı böyük Tan imperiyasının Şimalla ticarətində vasitəçi rolunu oynayırdı. Ticarət meydanı kimi buraya müxtəlif ölkələrdən xəz, metal, mal-qara və s. məhsullar gətirilib satılırdı. Buna görə də ticarət infrastrukturu xüsusilə inkişaf elətdirilir, belə bazarlar bütün ticarət yolu boyu təşkil edilirdi. Xaqanlıq daxilində beynəlxalq ticarət elə bir vüsət almış və elə böyük gəlirlər gətirirdi ki, belə bazarların ətrafında qəsəbələr meydana gəlirdi. Uyğurların əsas ixrac məhsulu o dövr üçün həm sivil, həm də hərbidə əsas minik vasitəsi olan atlar və digər ev heyvanları idi. İldə minlərlə heyvan çinlilərin ipəyinə dəyişdirilirdi [14, s. 30].




**Şəkil 5**. Uyğur Xaqanlığının ərazisi

Alimlərin fikrincə xaqanlığın iqtisadi sistemi sivilizasiyanın bütün əlamətlərini – oturaq yaşayış məntəqələri, suvarma əkinçiliyi, şəhər iqtisadiyyatı, maddi istehsal, metal məmulatların məişət və hərbi məqsədlərdə geniş tətbiqi, uzun məsafəli ticarət və s. – özündə ehtiva edirdi [14, s. 31].

10) Qaraxanlı dövləti (eramızın 840-1212-ci illəri). Bu dövlət müasir Qırğızıstan və Tacikistanın bütün ərazisi, Qazaxıstan, Özbəkistan və Çinin az bir hissəsində yaranaraq, 3 milyon kv. km əraziyə malik olmuşdur (şəkil 6).

<u>İqtisadiyyatı.</u> Feodal münasibətlərin hakim olduğu ölkədə köçəri xarakterli ekstensiv əsasən xırda buynuzlu maldarlıq, sənətkarlıq, kənd təsərrüfatı mallarının emalı, o cümlədən yun paltar və dəri ayaqqabı istehsalı, şəhərlə kənd arasında əmək bölgüsünə əsaslanan ticarət inkişaf etmişdi. Bişmiş kərpic texnologiyasına yiyələnmə bu ərazidə gözəl islam memarlıq abidələrinin yaradılmasını şərtləndirdi. Onların böyük qismi indi də Buxara, Səmərqənd və digər şəhərlərdə qalmaqdadır. Cənubi Qazaxıstan və Mərkəzi Asiyada şüşə istehsalı geniş yayılmışdı. Mədənçıxarma və metallurgiya vüsət almışdı – qızıl, gümüş, dəmir, mis, firuzə, neft, asfalt çıxarılır və emal olunurdu [15].

Mislə gümüşün xəlitəsindən sikkə buraxılışı ticarətin pul formasının inkişafını şərtləndirmişdi. Böyük İpək yolunun üstündə yerləşməsi Qaraxanlı dövlətində daxili ticarətlə yanaşı beynəlxalq ticarətin də inkişafına təsir göstərmişdi [16, s. 190]. Köçərilərin ən çox ehtiyacı olan məhsullar (məsələn, parça) başqa ölkələrə də ixrac olunurdu. Bartoldun qeyd etdiyi kimi, beynəlxalq ticarət qaraxanlıların islam mədəniyyətinə uzlaşmasının və nəticədə islamı qəbul eləmələrinin mühüm şərtlərindən oldu [16, s. 191-192].




**Şəkil 6**. Qaraxanlı dövlətinin ərazisi

11) Qəznəvilər dövləti (eramızın 975-1187-ci illəri). Bu dövlət müasir Əfqanıstan, Hindistan, Pakistan, Mərkəzi Asiya və İranın bir hissəsində yerləşmişdi (şəkil 7).

<u>İqtisadiyyatı</u>. Əsasən dağlıq ərazidə yerləşən bu ölkədə maldarlıq əsas iqtisadi fəaliyyət sahəsi olmuşdur, digər fəaliyyət istiqamətləri məhdud idi. Digər tərəfdən Böyük İpək yolunun əhəmiyyətli hissəsinə nəzarət beynəlxalq ticarətin tranzitindən yüksək gəlir əldə olunurdu [17]. Eyni zamanda İran mədəniyyəti təsiri altında olan Qəznəvilər dövlətində elm və mədəniyyət güclü inkişaf etmişdi. İslam ölkələrindən buraya o dövrün intellektual elitası – alimlər, şairlər, rəssamlar gəlirdi. Xarəzmdə anadan olmuş məşhur İslam alimi, islam aləminin ən böyük mütəfəkkiri sayılan riyaziyyatçı, həkim, astronom Əl-Biruni 1017-ci ildən Qəznəvilər dövlətinin paytaxtı Qəzni şəhərində məskunlaşmışdı. Qeyd olunur ki, İran şairi fars ədəbiyyatının şedevri sayılan Firdovsinin "Hökmdarlar kitabı" məhz Qəznəvilər dövlətinin banisi, görkəmli dövlət xadimi Mahmud Qəznəviyə həsr olunmuşdur [18].




**Şəkil 7.** Qəznəvi dövlətinin ərazisi

12) Böyük Səlcuq İmperatorluğu (eramızın 1040-1157-ci illəri). Bu dövlət Anadolunun şərqi və Xorasan arasında yerləşmiş [1], Anadolu, Qafqaz, Yaxın Şərq, İran və Mərkəzi Asiyada böyük ərazini əhatə edirdi. 1080-ci ildə 3 milyon 900 min kv. km ərazini əhatə etmişdir (şəkil 1.8). Müxtəlif illərdə paytaxtı Nişapur (1038—1043), Rey (1043—1073), İsfahan (1073—1118), Həmədan (1118), Mərv (1118-1157) olmuşdur (şəkil 8).




**Şəkil 8**. Böyük Səlcuq dövlətinin ərazisi [19]

İqtisadiyyatı. Səlcuq dövlətinin mühüm xüsusiyyətlərindən biri ticarətin geniş vüsət almasıdır. Bu həm lokal miqyasda, yəni qonşu ölkələrlə, o cümlədən, Bizansla, ərəblərlə münasibətdə, həm də regional miqyasda, xüsusən də Mərkəzi Asiya ilə münasibətlərdə özünü biruzə verirdi. İran və Rusiya tacirlərinin də yarımadaya səfərləri intensiv xarakter almışdı [20].

Daxili istehsala gəldikdə əsas fəaliyyət kənd təsərrüfatı idi. Torpağın böyük hissəsi dövlət mülkiyyətində olsa da, özəl torpaq sahibkarları da var idi. Müharibə zamanı təxliyə olunan ərazilərə dövlət kütləvi olaraq əhali göndərir və onlara bir neçə il vergidən azad olunma, buğda toxumu, alət və mal-qara ilə təminat kimi güclü güzəştlər verirdi. Bu cür himayədarlıq nəticəsində əhali qısa müddətdə istehsal kəskin artdı və əhali varlandı. O dövrün səyahətçiləri dövlətin bir çox şəhərlərində suvarma kanallarının, otlaqların, əkin yerlərinin, şaftalı, armud, ərik, gavalı, badam ağaclarının, üzümlüklərin olduğunu qeyd edirlər. Maldarlıq da inkişaf etmişdi. Qoyun yunundan xalça, keçə, çadır, ip, torba, yəhər və müxtəlif parçalar, dəridən ayaqqabı, çarıq və digər məmulatlar, süddən pendir, yağ, yoqurt, şor və digər məhsullar istehsal olunurdu. Ənənəyə görə qida üçün ət geniş istehlak olunurdu. Bir çox hallarda vergi də qoyunla ödənilirdi [20].

Emal sahəsi sənaye istehsalınadək inkişaf etmişdi. Xüsusən də xalça və tekstil istehsal edən böyük zavodlar var idi. Bundan başqa boya, sabun və digər yuyucu məmulatlar, müxtəlif məqsədlər üçün bitki yağı, Alaniya yaxınlığında o dövr üçün dəbdəbə sayılan şəkər

sənaye üsulu ilə istehsal olunurdu. Yerli zərgərlik məhsulları ölkə hüdudlarından kənarda məşhur idi. Tarixi sənədlərə görə Səlcuq Türkiyəsi dövründə tək Malatyada sutkada 24 saat işləyən 12 min dəzgah var idi. Mühüm istehsal sahələrindən biri də silah sənayesi idi.

Burada hərbi texnika və sursatın o dövr üçün məlum olan bütün növləri, o cümlədən yay və ox, katapult, gəmi istehsal olunurdu. Bu məhsullar üçün xammal da – mis, dəmir, həmçinin o dövrdə az tapılan duz yataqları da kəşf olunmuşdu. İstehsal olunan məhsullar, o cümlədən buğda həm də ixrac olunurdu. Eyni zamanda qiymətli metal və daşlar – qızıl, gümüş, mirvari və s. idxal olunurdu və onlardan gömrük rüsumu alınmırdı. Ticarəti stimullaşdıran yerli pul da dövriyyəyə buraxılmışdı [20].

13) Xarəzmşahlar dövləti (eramızın 1097-1231-ci illəri). Anuşteginid nəsli tərəfindən idarə olunan bu dövlətin mərkəzi Amur çayının aşağı hissəsində olmaqla Şərqdən Əfqanıstan, Qərbdən müasir Türkiyə, Şimaldan müasir Rusiya torpaqları ilə sərhədə malik, cənubdansa müasir İranın bütün ərazisini əhatə etmiş, beləliklə, müasir Azərbaycan, İran, bütün Mərkəzi Asiya ölkələrinin ərazisində yerləşmişdir (şəkil 9). 1218-ci ildə 3,6 mln. kv. km əraziyə malik olmuşdur [21, s. 497]. Rəsmi dili fars dili olsa da, əksər alimlərin, o cümlədən britaniyalı alim Bosvortun rəyincə, Anuşteginidlər etnik türk olmuşlar [22]. İlk dövrlərdə Xarəzmşahlar Səlcuq dövlətinin vassalı olsa da, sonra müstəqil olmuşdur.




**Şəkil 9**. Xarəzmşahlar dövlətinin ərazisi [23]

<u>İqtisadiyyatı.</u> Xarəzmşahlar dövlətində maraqlı şəhər quruluşu var idi. Böyük şəhərlərdə sənətkarlıq inkişaf etmiş, böyük sənətkarlar məhəllələri mövcud idi. Şəhər qala divarlarının bilavasitə yaxınlığında üzümlüklərlə, sonuncular isə əkin yerləri ilə əhatə olunmuşdu. Sənətkarlar əsasən təbii ipək, söyüddən tikinti materialları istehsalı üzrə ixtisaslaşırdılar – söyüddən tikilən evlər bu ərazilərdə tez-tez baş verən güclü zəlzələlərə daha

dözümlü idilər [24, s. 65]. Bundan başqa tarixi mənbələrdən məlum olur ki, şəhərlərdə, xüsusən də paytaxt Qurqancda parça, silah, kənd yerlərində pambıq, meyvə, bostan bitkiləri becərilirdi. Şəhərlərdə çoxlu sayda mütəşəkkil bazarlar mövcud idi. Hətta bazarlarda qayda-qanuna riayətə nəzarət edən xüsusi vəzifə - müstəhiblər var idi. Beynəlxalq ticarət İraqa qədər geniş coğrafiyanı əhatə edirdi [24, s. 66]. Ölkədə 1141-ci ildə sikkə dövriyyəyə buraxılması da ticarəti asanlaşdırmışdı [24, s. 69].

14) Qızıl Orda dövləti (eramızın 1241-1502-ci illəri). Həm də Dəşti-Kıpçak xanlığı adlanan bu türk-moğol dövləti şərqdə müasir Qırğızıstan, qərbdə Macarıstan, şimalda Rusiya, İran sərhədləri ilə hüdudlanmaqla böyük bir ərazini əhatə edirdi. Krım da Qızıl Ordanın tərkib hissəsi idi (şəkil 10).




**Şəkil 10.** Qızıl Orda dövlətinin ərazisi [25]

<u>İqtisadiyyatı</u>. Qızıl Ordada səhra köçəri həyatı üçün səciyyəvi olan maldarlıq inkişaf etmişdi. Bəzi yerlərdə isə əhali əkinçiliklə məşğul olurdu. Bir tərəfdən meşə və ov heyvanları ilə zəngin olan Şimali-Şərqi Avropa, digər tərəfdənsə Qara dəniz və İranla qonşuluq bu ölkədə Şərqi  Romaya qədər uzanan ticarətin vüsət almasını şərtləndirmişdi, belə ki, vergi gəlirlərinin əsas hissəsini tacirlərdən alınan “tamğa” təşkil edirdi. Krım, bir növü, ticarət pabı rolunu oynayırdı - əsrlər boyu bura əmtəə mübadiləsi mərkəzinə çevrilmiş və tədqiqatçıların fikrincə Rusiya cənubu çöllərində ilk dəfə burada qayda-qanun yaradılmış, Qara dənizdən Çinədək qurudan ticarət yolunun təhlükəsizliyi təmin olunmuş, bu isə öz növbəsində ticarətin daha da vüsət almasını şərtləndirmişdir [26, s. 20-21].

Qızıl Orda dövlətindən samur, dələ, tülkü, qunduz, keçi, dovşan və digər heyvan xəzi, bal, arı mumu, balıq, balıq yağından yapışqan, xüsusi texnologiyalarla hazırlanmış təbii boylar, fıstıq qabığı, ağcaqayın, at dərisi, kəhrəba, qozlar, qırğı, qalxan, iri və xırda heyvanlar, qul ixrac olunurdu. Ordanın Qafqaz regionunda metallurgiya inkişaf etdiyindən buradan

əsasən silah və hərbi texnika ixrac olunurdu [26, s. 28-29]. İdxala gəlincə Hindistandan ətirli maddələr, müxtəlif köklər, keramik məmulatlar, Romadan şərqindən Qafqaz xammalından hazırlanmış ipək parça, şimalından əsir qullar gətirilirdi [26, s. 29].

Krımdan başqa Şimali Qafqazda, o cümlədən Kuban çayı üzərindəki limanlar da Avropa ilə şərq ölkələri arasında tranzit ticarət mərkəzləri rolunu oynayırdı [26, s. 29].

15) Teymur İmperatorluğu (eramızın 1368-1501-ci illəri). Bu dövlət şimalda Dərbənd keçidi, Volqa və İrtış çayları, cənubda İran körfəzi, şərqdə Qobi səhrasının və Qanq çayı, qərbdə Balkan yarımadasınadək geniş bir ərazini əhatə edən, Azərbaycan və digər Cənubi Qafqaz torpaqlarını, İranı, Pəncab, Xorasan və Mavəraənnəhr coğrafiyasını daxilinə alan qüdrətli bir türk dövləti idi [27] (şəkil 11). Belə bir böyük imperiyanın yaradılması bir çox dövlətlərin, o cümlədən Qızıl Ordanın və Bəyazidin sultanlığı dövründə Osmanlı dövlətinin məğlub edilməsi nəticəsində mümkün olmuşdu.

İqtisadiyyatı. Çingiz xandan fərqli olaraq Teymur imperiyanın iqtisadi inkişafına da xüsusi diqqət yetirirdi. Bu məqsədlə o, fəth etdiyi ölkələrdən ən yaxşı sənətkarları paytaxt Səmərqəndə gətirir, şəhərlər, irriqasiya qurğuları inşa etdirirdi. Bunun nəticəsində Səmərqənd dövrünün sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi. Asiyadan Avropaya və digər istiqamətlərdə ticarət yollarını da nəzarətə götürür, nəzarət edə bilmədiyi Qara dəniz və Xəzərətrafı ərazilərdən keçən yollarda ticarət maneələr yaratmağa çalışır, bu yolların üzərində olan Həştərxan, Saray-Bərkə və Ürgənc kimi şəhərləri dağıtmışdı [27].




**Şəkil 11.** Teymur İmperatorluğunun ərazisi [27]

Əmir Teymur Avropa ölkələri ilə birbaşa ticarətə xüsusi fikir verirdi. O, Fransa karlı VI Karla məktub göndərərək, paritet hüquqlu əsaslarda ticarət əlaqələrinin inkişaf etdirilməsini təklif edirdi. Teymur beynəlxalq ticarətdən İslam dininin nüfuzunun artırılması və əks siyasət məqsədilə də istifadə edirdi. Teymurun nəvəsi Uluqbəy də bu siyasəti davam

etdirərək, valisi olduğu Mavəraənnəhri abadlaşdırmış, dünyanın müxtəlif ölkələrindən, xüsusilə Çindən mahir sənətkarlar gətirdərək Səmərqənddə möhtəşəm məscidlər, mədrəsələr, imarətlər tikdirmişdi [27].

16) Böyük Moğol İmperatorluğu (Babur İmperatorluğu) (eramızın 1526-1848-ci illəri). Bu imperatorluq müasir Pakistan, Hindistan, Cənubi-Şərqi Əfqanıstan və Banqladeş ərazisində yerləşmiş bu dövlət Əmir Teymurun nəslindən olan və özünü onun varisi elan etmiş Babur tərəfindən yaradılmışdı [28]. Rus tarixçisi Y.İ. Rudenko qeyd edirdi ki, bu dövlətin hakim sinfi özünü “turan” adlandırırdı [29], “moğol” sözü isə hindistanlılar tərəfindən Mərkəzi Asiya və Şimali Hindistanın müsəlmanlarına nisbətlə istifadə olunurdu.




**Şəkil 12**. Böyük Moğol İmperatorluğunun ərazisi [28]

<u>İqtisadiyyatı</u>. 1556-1605-ci illərdə başçılıq edən növbəti imperator Əkbər şah iqtisadi siyasətdə Osmanlı imperatorluğunun təcrübəsindən istifadə edərək, bütün torpaqları dövlət mülkiyyətinə keçirdi, onu becərənlərə isə muzdlu işçi kimi məvacib ödənilirdi. Cagir adlanan feodal torpaq sahibliyi şərti xarakter daşıyırdı. Belə “sahibkarlara” torpaqdan vergi toplamaq hüququ verilmişdi. Bunun əvəzində isə onlar dövlətə qoşunla kömək etməli idilər. Heyvanların sayının dəqiqləşdirilməsi və onların düşmənlərə satışının qarşısını alınması məqsədilə ölkədəki dəvə, at və fillər damğalandı. Teymur kimi Əkbər şah da iqtisadiyyatın, o cümlədən daxili və beynəlxalq ticarət əlaqələrinin inkişafına xüsusi diqqət yetirirdi [28].

17) Osmanlı İmperatorluğu (eramızın 1299-1922-ci illəri). Tarixdə möhtəşəm transkontinental imperiya olmuş bu müsəlman-türk dövləti 1299-cu ildə Böyük Səlcuq imperatorluğunun süqutundan bir müddət sonra Kiçik Asiyada oğuzların qayı boyundan olan Osman bəy tərəfindən yaradılmışdır [30].

Osmanlı İmperatorluğunun pik dövrü sayılan 1683-cü ildə 30 mln. əhalisi olan 5 mln. kv. km ərazini əhatə etməklə şərqdən Cənubi Qafqaz, Qərbdən Avropanın bir hissəsi,

Cənubdan bütün Ərəb yarımadası və Afrikanın böyük hissəsi, şimaldan Avropa və Rusiya ilə əhatə olunmuş, aşağıdakı ərazi və dövlətləri zəbt eləmişdi [31] (şəkil 13):




**Şəkil 13.** Osmanlı İmperatorluğunun ərazisi [30]

- Avropada: Albaniya, Bolqarıstan, Bosniya və Herseqovina, Valahiya, Macarıstan, Yunanıstan, Dodekanes, Krit, Krım xanlığı, Kiklad adaları, Makedoniya, Moldova knyazlığı, Otrantr, Podoliya, Rodos, Saron adaları, Şimali Ege adaları, Serbiya, Slavoniya, Sporad, Transilvaniya knyazlığı, Monteneqro, Epir.
- Avropa-Asiya sərhədlərində: Abxaziya, Azərbaycan, Gürcüstan, Kipr.
- Asiyada: Abadan, Ədən, Fələstin, Həmədan, İordaniya, İraqın Bağdad, Bəsrə, Mosul vilayətləri, Kilikiya, Küveyt, Livan, Luristan, Oman, Qətər, Səudiyyə Ərəbistanının Əsir, Nec, Hicaz, Əl-Hasi, bölgələri, Suriya, Yəmən.
- Afrikada: Eritreya, Liviya, Misir, Sudan, Tunis, Əlcəzair.

İqtisadiyyatı. İmperiya hökuməti İstanbul və Bursa kimi böyük şəhərlərdə sənaye və ticarət mərkəzlərinin yaradılması siyasətini həyata keçirirdi. Məhz bu məqsədlə II Mehmet və onun varisi olan II Bəyazid yəhudi sənətkar və tacirlərinin ölkəyə immiqrasiyasını təşviq edirdilər. Yəhudilərin Avropadan sıxışdırılması bu prosesin daha da sürətləndirirdi. Xəzinədarlıq və kargüzarlıq da digər müsəlman ölkələri ilə müqayisədə daha mükəmməl idi. İmperiyanın Avropa və Şərq dünyası arasında olması bu iki coğrafiyanın quru əlaqələrində Osmanlıdan asılı edirdi. Məhz bu səbəbdən avropalılar Hindistanla əlaqə məqsədilə yeni dəniz yolları axtarıb tapdılar və bu axtarış zamanı Avropanın iqtisadi inkişafını şərtləndirən Amerikanı kəşf etdilər. Bütün bunlar Avropanın, xüsusən də İngiltərə, Fransa, İspaniya, Portuqaliya və Niderlandın müstəmləkələr hesabına varlanmasını şərtləndirdi və Osmanlı İmperiyasının dünyada təsirini əhəmiyyətli dərəcədə azaltdı [31].

Osmanlı İmperiyasında bütün torpaqların sahibi sultan idi. Eyni zamanda Moğol imperiyasında olduğu kimi, burada da şərti torpaq sahibliyi institutu mövcud idi və bunun dörd forması var idi: 1) dövlət torpaqları; 2) Sultan ailəsinə məxsus torpaqlar; 3) vəqf torpaqları; 4) mülk torpaqları. Muzdlu qoşuna ilk dövrlərdə məvacib, müəyyən müddətdən sonra isə şərti kiçik mülklər verilirdi. Kəndlilər su və torpaqdan istifadəyə görə vergi verirdi. Müsəlman əhaliyə müsəlman olmayanlar fərqli prinsiplərlə vergi verirdi. Müsəlman olmayanlar hərbi xidmətə cəlb olunmurdu [30].

**Nəticə.** Böyük İpək yolu türk xalqlarının təşəbbüsü ilə yaranmış və tarixi boyunca onun əksər əraziləri türk dövlətlərinin nəzarətində olmuşdur. Ticarət yolları üzərində nəzarət uğrunda bir çox hallarda müharibələrlə nəticələnən dövlətlərarası şiddətli qarşıdurmalar, demək olar ki, fasiləsiz şəkildə davam etmişdir. BİY onun əhatə etdiyi ölkələrin iqtisadi inkişafına böyük töhfə vermiş, iqtisadi əməkdaşlıq və ticarət əlaqələri müxtəlif etnos və konfessiyalara məxsus olan xalqlar və dövlətlərarası inteqrasiya proseslərini stimullaşdırmışdır. Hazırda da "Bir kəmər, bir yol" dəhlizi əsasən türk ölkələrinin ərazisindən keçməklə qeyd olunan bu tarixi həm pozitiv, həm də neqativ meyillər yenə də müşahidə olunmaqdadır.

## Ədəbiyyat

1. 16 Türk devleti hangileridir? / https://www.milliyet.com.tr/molatik/galeri/16-turk-devleti-hangileridir-83975/1
2. Гавритухин И.О. Гунны. БРЭ. Т. 8, М., 2007, с. 160.
3. Böyük Hun İmperiyası https://www.wiki.az-az.nina.az/B%C3%B6y%C3%BCk_Hun_%C4%B0mperiyas%C4%B1.html
4. Западное гуннское императорство https://istoriyamira.ru/zapadnoe-gunnskoe-imperatorstvo/
5. 6 фактов о гуннах, которые должен знать каждый https://e-history.kz/ru/news/show/5541/
6. Ганковский Ю.В. (1982), История Афганистана с древнейших времен до И 90 наших дней Отв. ред. Ю. В. Ганковский, М.: Мысль, 368 с.
7. Тюркский каганат. https://www.booksite.ru/fulltext/1/001/008/113/276.htm
8. Кан Г.В. История Казахстана, Алматы, 2011, 312 с.
9. Гавритухин И.О., Петрухин Е.Я. Аварский каганат, Большая российская энциклопедия, М.: Большая Российская энциклопедия, 2005, Т. 1, с. 51, 768 с.
10. Вернадский Г.В. Византия, авары и анты в правление Маврикия, https://history.wikireading.ru/32259
11. Golden P.B. Khazar studies: achievements and perspectives, The World of the Khazars: New Perspectives, Leiden, Boston, 2007, 459 p.
12. Плетнёва С.А. Хазары, М., Наука, 1976, 96 с.
13. Хазарский каганат https://ru.wikipedia.org/wiki/Хазарский_каганат#cite_note-104

14. Васютин С.А. Уйгурский каганат – цивилизационная альтернатива пасторальным империям центральной Азии I тыс. н. э. Вестник Томского государственного педагогического университета, 2011, № 11 (113), с. 28-34.
15. Караханидский каганат и его социально-экономическое развитие, https://vuzlit.cm/343752/karahanidskiy_kaganat_sotsialno_ekonomicheskoe_razvitie
16. Распространение торговой теократии в государствах Таримской впадины на примере исламизации Караханидского каганата, Исторические науки и археология, 2016, № 1(49), стр. 189-199.
17. Газневидское государство https://history.fandom.com/ru/Газневидское_государство
18. Государство Газневидов https://studfile.net/preview/8756793/page:37/
19. http://e-derslik.edu.az/books/297/units/unit-1/page49.xhtml
20. Selçuklu ekonomisi. Ekonomik faaliyetler. Ticaret http://anadoluselcuklu.blogspot.com/p/ekoomi.html
21. Taagepera R. Expansion and Contraction Patterns of Large Polities: Context for Russia International Studies Quarterly, 1997, N 41, pp. 475–504.
22. Bosworth C.E. The Anushteginid Khwarazm-Shahs: Gentle Ascent and Catastrophic Decline in Morgan, David O., and Sarah Stewart, eds. The Coming of the Mongols. I.B.Tauris & Co. Ltd, 2018, p.7.
23. www.google.com/search?q=Государство+Хорезмшахов+карта&sxsrf=APq-WBvYnDxgBPvxJ5zMNo2VKZCCh3XriA
24. Буниятов З.М. Государство Хорезмша́хов-Ануштегинидов 1097-1231, Баку, Элм, 1999, 206 с.
25. https://www.google.com/search?q=altin+orda+hanli%C4%9Fi+haritas%C4%B1&sxsrf=APq-WBuyeO1UrMm4q3y4gnH-wPJg4YWjKA:
26. Göktürk Y. Altin orda devleti'nde ekonomik hayat. Konya, 2019, 177 s.
27. Teymur imperatorluğu https://kayzen.az/blog/t%C3%BCrkl%C9%99r/10271/teymur-imperatorlu%C4%9Fu.html
28. Böyük Moğol imperatorluğu https://kayzen.az/blog/orta-%C9%99srl%C9%99r-tarixi/12960/b%C3%B6y%C3%BCk-mo%C4%9Fol-imperatorlu%C4%9Fu.html
29. 10 фактов о тюркской династии Великих Моголов (или как узбеки правили Индией) https://vk.com/wall-23232544_4497609
30. Osmanlı imperatorluğu https://kayzen.az/blog/t%C3%BCrkl%C9%99r/12955/osmanl%C4%B1-imperatorlu%C4%9Fu.html
31. Османская империя https://ru.wikipedia.org/wiki/ Османская империя Открытие Шелкового пути / https://www.advantour.com/rus/silkroad/history.htm